# Küveyt Azərbaycanın haqlı mövqeyini hər zaman dəstəkləyir

Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov martın 12-də ölkəmizdə səfərdə olan Küveyt Millət Məclisinin Küveyt-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Xalid əl-Üteybinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Ziyafət Əsgərov Azərbaycanın Küveytlə münasibətlərin daha da dərinləşməsinə önəm verdiyini qeyd edərək, əlaqələrin dostluq və qardaşlıq xarakteri daşıdığını bildirib. Qeyd edib ki, Azərbaycanla Küveyt müxtəlif beynəlxalq təşkilatlarda, o cümlədən BMT-də, İslam Əməkdaşlıq Təşkilatında, Qoşulmama Hərəkatında yaxından əməkdaşlıq edirlər.

Milli Məclis Sədrinin birinci müavini bildirib ki, ölkələrimiz arasında bütün sahələrdə yaxşı əlaqələr mövcuddur. Parlamentlərarası münasibətlər də inkişaf etməkdədir. Bu cür səfərlər əməkdaşlığın daha da genişləndirilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanın regionun ən inkişaf etmiş ölkəsi olduğunu deyən Ziyafət Əsgərov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Xocalı soyqırımı barədə də məlumat verib. Bildirib ki, Azərbaycanda 1 milyondan çox qaçqın və məcburi köçkün var. Münaqişənin həlli istiqamətində BMT-nin qəbul etdiyi 4 qətnaməyə məhəl qoymayan işğalçı Ermənistan beynəlxalq hüququn prinsiplərinə zidd hərəkətlər edir. Z.Əsgərov Küveytin Azərbaycanın haqlı mövqeyini dəstəklədiyinə görə təşəkkürünü bildirib.

İqtisadi münasibətlərə diqqət çəkən Ziyafət Əsgərov bu sahədəki vəziyyətin mövcud potensialla uzlaşmadığını, iqtisadi əlaqələrin inkişafı üçün böyük imkanların olduğunu diqqətə çatdırıb.

Küveyt Dövləti Millət Məclisinin Küveyt-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Xalid əl-Uteybi öncə səmimi qəbul və qonaqpərvərlik üçün təşəkkür edib. Onun sözlərinə görə, Azərbaycanla Küveyti bir-birinə güclü əlaqələr bağlayır. Qonaq vurğulayıb ki, Küveyt Azərbaycanın ərazi bütövlüyünü, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın haqlı mövqeyini hər zaman dəstəkləyir. Küveyt beynəlxalq təşkilatlar çərçivəsində də hər zaman Azərbaycanın tərəfindədir.

Xalid əl-Uteybi qeyd edib ki, Azərbaycan hökumətinin Küveyt dövləti və digər körfəz ölkələrinə sadələşdirilmiş viza rejiminin tətbiqi ilə bağlı olaraq Küveytdən gələn turistlərin sayında müşahidə olunan artım sevindiricidir. Ümid edirik ki, gələcəkdə Azərbaycan küveytli turistlər üçün ən əsas turizm ölkələrindən biri olacaq.

Görüş qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsi ilə davam edib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2019.- 13 mart.- S. 3.